QANUN № 06 (380), 2026, s. 168-175

Qarayev Samir Siyasət oğlu,
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı, polis polkovniki
E-mail: garayev.samir@gmail.com

UOT 343.13
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0173

İNSAN ALVERİ CİNAYƏTLƏRİ ÜZRƏ CİNAYƏT TƏQİBİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *insan alveri, cinayət təqibi, ibtidai istintaq, xüsusi polis qurumu, insan alveri qurbanı, latent cinayətkarlıq, sübutların toplanması, reabilitasiya və reinteqrasiya, bərpa və fikirləşmə müddəti, konfidensiallıq, təhlükəsizlik tədbirləri, beynəlxalq əməkdaşlıq, transmilli cinayətkarlıq, İNTERPOL, EUROPOL, EUROJUST.*

Ключевые слова: *торговля людьми, уголовное преследовани, предварительное расследование, специализированное полицейское подразделение, жертва торговли людьми, латентное преступление, сбор доказательств, реабилитация и реинтеграция, период восстановления и размышления, конфиденциальность, меры безопасности, международное сотрудничество, транснациональная преступность, ИНТЕРПОЛ, ЕВРОПОЛ, ЕВРОЮСТ.*

Keywords: *human trafficking, criminal prosecution, preliminary investigation, specialized police unit, human trafficking victim, latent crime, evidence collection, rehabilitation and reintegration, recovery and reflection period, confidentiality, safety measures, international cooperation, transnational crime, INTERPOL, EUROPOL, EUROJUST.*

Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli "İnsan alverinə qarşı mübarizə haqqında" Qanununun 1-ci maddəsinə əsasən insan alveri – zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir [1]. Qanunvericilikdə təsbit edilmiş bu anlayış Azərbaycan Respublikasının 2003-cü il 13 may tarixli Qanunu ilə təsdiq edilmiş BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolda insan alverinə verilmiş anlayışdan qaynaqlanır [5]. 2005-ci il 30 sentyabr tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinə "İnsan alveri" adlı yeni – 144-1-ci maddə, eyni zamanda insan alverinin forması olan "Məcburi əmək" adlı 144-2-ci maddə və "İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma" – 316-1-ci maddə əlavə edilmişdir [1].

Cinayət Məcəlləsində bu əməllərin cinayət əməli kimi sayılması həmin əməllər üzrə cinayət təqibinin aparılmasını zəruri etmişdir. BMT-nin qeyd olunan konvensiyasının 5 və 11-ci maddələri də bu əməllərin kriminallaşdırılmasını

və cinayət təqibi aparılmasının təmin edilməsini iştirakçı dövlətlərin üzərinə qoyur [5].

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəllənin 7.0.4-cü maddəsinə əsasən cinayət təqibi – cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir [2]. Analoji olaraq qeyd edə bilərik ki, insan alveri cinayətləri üzrə cinayət təqibi bu cinayətlərin aşkarlanması, cinayəti törətmiş şəxsin müəyyən edilməsi, tutulması və cinayət əməlini və şəxsin bu cinayəti törətməsini təsdiq edən sübutların əldə edilməsi məqsədi ilə həyata keçirilən əməliyyat-axtarış, təhqiqat və istintaq fəaliyyəti, eyni zamanda törədilmiş əmələ görə ədalət mühakiməsinin həyata keçirilməsi və cəza təyin edilməsi ilə bağlı məhkəmə fəaliyyətidir.

İnsan alveri cinayətləri üzrə cinayət təqibinin spesifik xüsusiyyətlərini, onun digər cinayətlər üzrə aparılan cinayət təqibindən fərqli xüsusiyyətlərə malik olması nəzərə alınaraq ilk dəfə qanunvericilikdə bu cinayətlər üzrə cinayət təqibinin aparılması xüsusi orqana həvalə edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nın 3-cü bəndində qeyd olunmuşdur: "İnsan alveri cinayətlərinin təqibi həmin cinayətlərin müəyyən edilməsi, insan alveri cinayəti törətmiş şəxsin ifşa olunması, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin həyata keçirilməsi, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, insan alveri cinayəti törətmiş şəxsə cəza təyin edilməsindən ibarətdir.

İnsan alverinə qarşı mübarizə aparan ixtisaslaşmış orqan qismində Xüsusi polis qurumu müəyyən edilir. Digər hüquq mühafizə orqanları insan alveri ilə bağlı hazırlanan cinayətlər haqqında məlumatlar əldə etdiyi təqdirdə təxirəsalınmaz tədbirlər görməklə Xüsusi polis qurumunu dərhal məlumatlandırır və ona lazımi kömək göstərir". Qeyd olunan Planın 7-ci bölməsinin 8-ci bəndində İnsan alverinə qarşı mübarizə üzrə ixtisaslaşmış və təlim keçmiş polis qurumunun yaradılması görüləcək tədbir kimi təsbit edilir [3]. Cinayət təqibinin xüsusi polis orqanı tərəfindən aparılması ilə bağlı məsələlər, 2009-2013-cü illəri əhatə edən II, 2014-2018-ci illəri əhatə edən III və 2020-2024-cü illəri əhatə edən IV Milli Fəaliyyət Planlarında da nəzərdə tutulmuşdur.

I Milli Fəaliyyət Planında qeyd olunan müddəaların nəticəsi olaraq "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 8-ci maddəsində qeyd olunur: "Milli Fəaliyyət Planında göstərilən vəzifələrin səmərəli icrası, insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, onlara peşəkar yardım göstərilməsi, insan alverinə qarşı mübarizə sahəsində məlumatların vahid mərkəzdə cəmlənməsi və qorunması, insan alverinə qarşı mübarizənin xüsusi təlim keçmiş peşəkar polis əməkdaşları və lazımi avadanlıqla təchiz edilmiş polis qurumu tərəfindən həyata keçirilməsi məqsədilə xüsusi polis qurumu yaradılır. Xüsusi polis qurumu insan alveri qurbanlarının müəyyən edilməsi və müdafiə edilməsi ilə yanaşı, həmçinin insan alveri ilə bağlı cinayətlər üzrə səlahiyyətləri daxilində əməliyyat-axtarış fəaliyyətini və cinayət təqibini həyata keçirir" [7].

Qanunun 8.4-cü maddəsində qeyd olunur: "Şəxsin insan alverindən zərər çəkməsi ehtimal edildikdə, yaxud insan alveri ilə bağlı cinayətlərin törədilməsi və ya hazırlanması digər orqanlar tərəfindən aşkar edildikdə, bu barədə xüsusi polis qurumuna dərhal məlumat verilməli, müvafiq sənədlər həmin quruma təqdim edilməli və zəruri kömək göstərilməlidir" [7].

Bunun məntiqi davamı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 1 fevral tarixli Qərarı ilə "İnsan alveri cinayəti qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları" təsdiq edilmişdir. Qaydalar dövlət və qeyri-dövlət qurumları tərəfindən insan alveri cinayətinin qurbanı olmuş şəxslərin və ehtimal edilən qurbanların insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna (bundan sonra – xüsusi polis qurumu) təhvil verilməsi mexanizmlərini tənzimləyir. Qaydalara əsasən insan alveri cinayətinin qurbanlarını müəyyən edən qurumlar ilk növbədə onların təhlükəsizliyini, şəxsiyyətinin anonimliyini və barələrində əldə edilmiş məlumatların konfidensiallığını təmin etməli, həmin şəxslərin ərizə və müraciətlərinin qeydiyyatını məxfilik rejiminə riayət olunmaqla, xüsusi jurnalda aparmalı, qanunvericilikdə nəzərdə tutulan hüquqlarını izah etməli, təhvil veriləcəkləri qurum, həmin qurumun səlahiyyətləri, eləcə də sonrakı mümkün prosessual hərəkətlər barədə məlumat verməli, 16 yaşınadək olan və əqli cəhətdən zəiflik əlamətləri olan insan alverinin qurbanları və ya ehtimal edilən qurbanlarla bağlı aparılan araşdırmalarda pedaqoqun, yaxud psixoloqun iştirakını təmin etməlidirlər. Qaydalarla müəyyən olunmuşdur ki, şəxsin insan alverindən zərər çəkməsi ehtimal olunduqda, yaxud insan alveri cinayətinin hazırlanması və ya törədilməsi digər qurumlar tərəfindən aşkar edildikdə, insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, onlara peşəkar yardım göstərilməsi, insan alverinə qarşı mübarizə sahəsində məlumatların vahid mərkəzdə cəmlənməsi və qorunması məqsədi ilə bu barədə xüsusi polis qurumuna dərhal məlumat verilməlidir. İnsan alveri cinayətinin qurbanları və ehtimal olunan qurbanları müəyyən edildikdən sonra onların müraciətləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilərək, 24 saatdan gec olmayaraq şəxsin xüsusi polis qurumuna təhvil verilməsi üçün təxirəsalınmaz tədbirlər görülməklə, onun müvafiq sənədləri həmin quruma təqdim edilir və lazımi köməklik göstərilir [11].

Göründüyü kimi, insan alveri cinayətləri üzrə cinayət təqibinin spesifikliyi Azərbaycan Respublikası qanunvericiliyində, həmçinin bu sahədə beynəlxalq sənədlərdə insan alveri cinayətləri üzrə cinayət təqibinin xüsusiləşdirilməsini tələb edir.

Təsadüfi deyil ki, insan alveri üzrə yerli və beynəlxalq qanunvericilik tələb edir ki, bu sahədə cinayət təqibini həyata keçirən şəxslər xüsusi qaydada ixtisaslaşmalı, təlimlərə cəlb edilməli, cinayət təqibinin xüsusiyyətləri ilə bağlı peşə vərdişlərinə malik olmalıdırlar. Belə ki, "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 8.3-cü maddəsində qeyd olunur. "Xüsusi polis qurumunun əməkdaşları xidmətə şəffaflıq əsasında, digər meyarlarla yanaşı şəxsi keyfiyyətlər, peşə hazırlığı, təhsil səviyyəsi və psixoloji dayanıqlıq baxımından insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumunda xidmətə yararlı olmaları nəzərə alınmaqla qəbul edilirlər. Xüsusi polis qurumuna xidmətə qəbul olunmuş əməkdaşlar əsasən aşağıdakı məsələlər üzrə təlim keçirlər:

- insan alveri qurbanlarından və digər mənbələrdən qanunvericiliklə müəyyən edilmiş qaydada məlumatların, sənədlərin və digər əşyaların əldə edilməsi, təhlili və sübut qismində təqdim edilməsi;
- insan alveri qurbanlarının müəyyən edilməsi üsulları;
- müəyyən müşahidə üsullarından və texniki vasitələrdən istifadə edilməsi;
- insan alveri qurbanları ilə davranış qaydaları [7].

Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli Qanunu ilə təsdiq edilmiş Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının 10.1-ci maddəsində qeyd olunur: "Hər bir Tərəf insan alverinin qarşısının

alınması və onunla mübarizə, uşaqlar da daxil olmaqla insan alveri qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi sahəsində müvafiq təlim keçmiş və ixtisaslaşmış şəxslərin öz səlahiyyətli orqanlarına təyin edilməsini təmin etməli və qadın və uşaq alveri qurbanlarının onların xüsusi vəziyyətini nəzərə alan prosedurla müəyyən edilməsi və lazım gəldikdə, onlara bu Konvensiyanın 14-cü maddəsinin müddəalarına əsasən ölkə ərazisində yaşayış icazəsi verilməsi üçün aidiyyəti orqanların bir-biri ilə və həmçinin əlaqədar yardımçı təşkilatlarla əməkdaşlıq etməsini təmin etməlidir" [4].

İnsan alveri cinayətləri üzrə cinayət təqibinin spesifikliyini şərtləndirən amillər hansılardır və nə üçün qanunvericilik bu növ cinayətlərin istintaqı üçün xüsusi qaydalar müəyyən edir?

İnsan alveri cinayətlərinin spesifikası bir çox amillərlə şərtlənir. Bu amilləri şərti olaraq aşağıdakı qruplara bölmək olar:

- cinayətin xarakteri, aşkarlanması, sübutların əldə edilməsi üzrə xüsusiyyətlər;

- cinayətdən zərərçəkmiş şəxslərlə bağlı aparılan iş üzrə xüsusiyyətlər;

- cinayət təqibinin zərərçəkmiş şəxslərin reabilitasiyası ilə paralel və əlaqəli şəkildə aparılması üzrə xüsusiyyətlər;

- cinayət təqibinin digər dövlətlərin hüquq mühafizə və başqa qurumları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə aparılması üzrə xüsusiyyətlər.

Cinayətin xarakteri, aşkarlanması, sübutların əldə edilməsi üzrə xüsusiyyətlərdən danışarkən ilk növbədə qeyd olunmalıdır ki, bu cinayətlərin əksəriyyəti gizli şəkildə törədilir və latent xarakter daşıyır. **Latent cinayət** (və ya latent cinayətkarlıq) – hüquq-mühafizə orqanlarının qeydiyyatına düşməyən, rəsmi statistikada əks olunmayan, lakin əslində baş vermiş gizli cinayət əməlləridir. Bu cinayətlər barədə dövlət qurumlarına məlumat daxil olmur və ya müxtəlif səbəblərdən qeydiyyata alınmır. Bu növ cinayətlərdə zərərçəkmiş şəxs ona qarşı edilmiş cinayət barədə məlumat vermir. Təcrübə göstərir ki, zərərçəkmişin bu qaydada davranışının bir sıra səbəbləri var. Belə ki,

- insan alverinə məruz qalmasının aşkarlanması zərərçəkmişin ictimai, həmçinin ailə üzvləri arasında qınağa məruz qalmasına və bununla da ailədaxili problemlərin yaranmasına səbəb olacaq.

- zərərçəkmiş ona qarşı cinayət törətmiş şəxsin təzyiqlərindən qorxur, mütəmadi olaraq həmin şəxs tərəfindən psixoloji zorakılığa məruz qalır (cinayət təqibi orqanına məlumat verəcəyi halda rüsvayedici məlumatları ictimailəşdirmək və s. bu kimi hədələr).

- cinayət təqibi orqanına inamsızlığın mövcud olması (ona qarşı cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb ediləcəyinə inanmır).

- istismar müddətində baş vermiş hadisələri unutmağa və bir daha xatırlamamağa çalışır (çoxlu sayda psixoloji travmalar almışdır).

Prosesin davamı olaraq, belə olan hallarda zərərçəkmiş cinayət təqibi müddətində cinayət təqibi orqanı ilə əməkdaşlıqdan, şikayətdən, cinayət hadisəsi üzrə məlumat və dəlilləri təqdim etməkdən imtina edir. Düzdür, Cinayət-Prosessual Məcəllənin 37-ci maddəsinin tələbinə əsasən insan alveri cinayətləri üzrə cinayət təqibi ictimai ittiham qaydasında aparılır [2]. Bu o deməkdir ki, cinayət təqibinin başlanması üçün insan alverinə məruz qalmış şəxsin şikayət etməsi zəruri deyil. Lakin razılaşın ki, zərərçəkmiş şəxsin cinayət təqibi ilə əməkdaşlıq etməməsi cinayət təqibi orqanının işini çətinləşdirir. Cinayət hadisəsinin transmilli və davamlı xarakter daşıması, bir neçə dövlətin ərazisində törədilməsi və başa çatdırılması sübut toplama prosesini mürəkkəbləşdirir.

- Digər spesifik cəhət insan alveri cinayətlərindən zərər çəkmiş şəxslərlə bağlı aparılan işin xüsusiyyətidir. İstismar müddətində fiziki və psixoloji zorakılığa məruz qalması insan alverindən zərər çəkmiş şəxsin (bundan

sonra – insan alveri qurbanı) sağlamlığında və psixoloji durumunda ciddi problemlər yaradır. Bu səbəbdən insan alveri qurbanı müəyyən olunarkən bir çox hallarda o adekvat davranış sərgiləmir və hər hansı ünsiyyətə girməkdən yayınır və ya imtina edir. Bu kimi halların mövcudluğu insan alveri qurbanları ilə xüsusi davranış modelinin və vərdişlərinin olmasını tələb edir. Təsadüfi deyil ki, qanunvericiliyə yalnız insan alveri qurbanları ilə bağlı bərpa və fikirləşmə müddəti daxil edilmişdir. Belə ki, Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli Qanunu ilə Cinayət-Prosessual Məcəlləyə yeni məzmunda "İnsan alverinin qurbanına bərpa və fikirləşmə müddətinin verilməsi" adlı 123-1-ci maddə əlavə edilmişdir. Maddədə qeyd olunur: "Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən təhqiqat orqanının əməkdaşı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror insan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddətinin verilməsi barədə qərar qəbul edir" [2]. Bundan öncə isə Azərbaycan Respublikası 2013-cü il, 19 aprel tarixli Qanunu ilə "İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna yeni məzmunda "Bərpa və fikirləşmə müddəti" adlı 14-1-ci maddə əlavə edilmişdir [7]. Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları"nın 2-ci maddəsi bərpa və fikirləşmə müddəti qaydalarını təsbit etmişdir [9].

Bərpa və fikirləşmə müddətinin müəyyən edilməsi insan alveri qurbanlarının müdafiəsinə yönəlmiş aşağıdakı üç məqsədin təmin edilməsinə xidmət edir:

1. İnsan alveri qurbanı öz vəziyyətini bərpa etsin.

2. İnsan alveri qurbanı ona qarşı cinayət törətmiş şəxsin təqibindən yayınsın.

3. İnsan alveri qurbanı cinayət təqibi orqanı ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etsin.

Şübhəsiz ki, insan alverinə qarşı mübarizə haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq bu müddətdə insan alveri qurbanı ilə reabilitasiya işi aparılır və ona bu məqsədlərə çatmaqda yardım edilir.

İnsan alveri qurbanının sorğulanmasının spesifikliyini nəzərə alan qanunvericilik bunun xüsusi qaydasını müəyyən edir. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti 2009-cu il, 3 sentyabr Qərarı ilə "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)" təsdiq edilmişdir. Geniş və hərtərəfli tənzimləmə müəyyən edən bu qaydalarla insan alveri qurbanlarının müəyyən edilməsi aspektləri, insan alveri qurbanlarının əlamətləri, onların müəyyən edilməsinin reaktiv və proaktiv üsulları, müəyyənləşdirmə metodikası, insan alveri qurbanları ilə müəyyənləşdirmə sorğusunun keçirilməsi, qiymətləndirmə üçün sualların verilməsi, əlavə təsdiqedici materiallar, insan alveri qurbanları ilə anket sorğusunun aparılmasına dair tövsiyələr əksini tapır [10].

Cinayət-Prosessual Məcəlləsinin 123-cü maddəsinə, Azərbaycan Respublikasının 1998-ci il 11 dekabr tarixli "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanunun [6] tələblərinə uyğun olaraq təhlükəsizlik tədbirlərinin görülməsi, uşaqlarla bağlı aparılan istintaq hərəkətlərinin xüsusi qaydaları, Məcəllənin 51-4-cü maddəsinə əsasən istintaq hərəkətlərinin videokonfrans vasitəsilə keçirilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın müəyyən edilməsi və leqallaşdırılmasının qarşısının alınması, əmlak üzərinə həbs qoyulması, zərərçəkmişlərə kompensasiya və vurulmuş ziyanın ödənilməsi ilə bağlı cinayət təqibi hərəkətləri, məhkəmə istintaqı və məhkəmə ba-

xışının qapalı keçirilməsi və digər [2] analoji hallar insan alveri cinayətlərində özünü daha qabarıq şəkildə göstərir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 17-ci maddəsində insan alveri qurbanlarına yardım göstərilməsi və onların müdafiəsinin təmin edilməsinə yönəlmiş hüquqi təminatlar nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, məhkəmənin və ya digər cinayət təqibi orqanının qərarı ilə insan alverindən zərər çəkmiş şəxsin şəxsiyyəti barədə məlumat-sorğu xidmətlərində və informasiya-məlumat fondlarında olan məlumatlara çıxış məhdudlaşdırılır. Bundan əlavə, insan alveri qurbanlarının şəxsi və ailə həyatının sirrini təşkil edən məlumatların yayılması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur. Eyni zamanda, insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığı üçün təhlükə yarada bilən məlumatlar konfidensial hesab edilir və onların yayılması qadağandır [7].

Həmin Qanunun 18-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanın vəzifəli şəxsi insan alverindən zərər çəkmiş şəxsi onun təhlükəsizliyinin təmin edilməsi imkanları və tətbiq olunan müdafiə tədbirləri barədə məlumatlandırmalıdır. Həmin maddədə müəyyən edilir ki, zərərçəkmiş şəxs barəsində tətbiq olunan təhlükəsizlik tədbirləri insan alveri ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırma, məhkəmə baxışı və məhkəmənin yekun qərarı qəbul edildikdən sonrakı mərhələ də daxil olmaqla, təhlükə tam aradan qalxanadək davam etdirilir. Zərərçəkmiş şəxsin şəxsiyyətinin məxfiliyinin təmin edilməsi məqsədilə isə uydurma adlardan istifadə edilməsinə yol verilir [7].

İnsan alveri cinayəti üzrə cinayət təqibinin spesifikliyini şərtləndirən növbəti amil cinayət təqibinin zərərçəkmiş şəxslərin reabilitasiyası ilə paralel və qarşılıqlı əlaqəli şəkildə həyata keçirilməsidir. Belə ki, "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 15-ci maddəsinə əsasən, insan alveri qurbanlarının sosial reabilitasiyası onların cəmiyyətə reinteqrasiyası, normal həyat tərzinə qaytarılması məqsədilə həyata keçirilir və insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsi, onların təhsilinin davam etdirilməsi, psixoloji reabilitasiya və psixoloji korreksiyası, tibbi və peşə reabilitasiyası üçün tədbirlər görülməsi, həmin şəxslərin iş və yaşayış sahəsi ilə təmin edilməsi imkanlarından istifadə edilməsini nəzərdə tutur [7].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları" qurbanların hüquqlarının qorunmasını və onların aidiyyəti quruma təhvil verilməsini, təhlükəsizliyini, repatriasiyasını, sosial reabilitasiyasını təmin edəcək səmərəli sistemin yaradılması və bu sahədə qaydaları müəyyən edir [8].

Cinayət təqibi orqanı insan alveri qurbanı barəsində reabilitasiya, reinteqrasiya və repatriasiya tədbirlərinin həyata keçirilməsində iştirak etməklə yanaşı zəruri əməliyyat, təhqiqat və istintaq hərəkətlərinin aparılması, istintaq planlaşdırılmasının tərtibi və təmini, məhkəmə baxışı zamanı bununla bağlı halları nəzərə almalıdır.

Növbəti spesifiklik cinayət təqibinin digər dövlətlərin hüquq mühafizə və başqa qurumları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə aparılmasıdır. Bu xüsusda beynəlxalq istintaq tapşırıqlarının verilməsi, Cinayət-Prosessual Məcəllənin 57-ci fəslinə uyğun olaraq qarşılıqlı hüquq yardımın göstərilməsi xüsusi əhəmiyyət kəsb edir [2]. Bu istiqamətdə beynəlxalq polis və ədalət mühakiməsi təşkilatları olan İNTERPOL, EUROPOL, EUROJUST kimi orqanlarla qarşılıqlı əməkdaşlıq zəruridir.

İnsan alveri cinayətləri üzrə cinayət təqibinin spesifik xüsusiyyətlərə malik olması bu cinayət

təqibi zamanı daha həssas, peşəkar və fərdi yanaşmanı tələb edir. Bu cür yanaşma ədalət mühakiməsinin prinsiplərinə uyğun olmaqla yanaşı cinayət təqibinin məqsədlərinə nail olunmasını təmin edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir (21 aprel 2026-cı il tarixdə olan dəyişikliklər). – Bakı: Qanun, – 2026. – 512

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi // Azərbaycan Respublikasının 2000-ci il 14 iyul tarixli 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir (21 aprel 2026-cı il tarixdə edilmiş dəyişikliklərlə). – Bakı: Qanun, – 2026. – 672 s.

3. Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı / Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/5977

4. Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyası / Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1002-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/19607

5. Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası / Azərbaycan Respublikasının 2003-cü il 13 may tarixli 435-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/2198

6. "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının 1998-ci il 11 dekabr tarixli 585-IQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/5098

7. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli 958-IIQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/10641

8. İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları / Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/18248

9. İnsan alveri qurbanlarının repatriasiya Qaydaları / Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/26649

10. İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları) / Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/18436

11. "İnsan alveri cinayəti qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 1 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/13160

Гараев Самир Сиясат оглу,
сотрудник Министерства внутренних дел
Азербайджанской Республики, полковник полиции

ПРОБЛЕМЫ УГОЛОВНОГО ПРЕСЛЕДОВАНИЯ ЗА ПРЕСТУПЛЕНИЯ, СВЯЗАННЫЕ С ТОРГОВЛЕЙ ЛЮДЬМИ

РЕЗЮМЕ

Статья рассматривает вопросы у уголовного преследования по делам, связанным с торговлей людьми в Азербайджане. В ней анализируется правовое определение торговли людьми на основе законодательства Азербайджана, Конвенции ООН против транснациональной организованной преступности и Палермского протокола.

Уголовное преследование включает оперативно-розыскную деятельность, дознание, следствие, предъявление обвинения и судебное разбирательство, направленне на установление виновных лиц и обеспечение правосудия.

Одной из ключевых особенностей является проведение расследования специализированным полицейским органом по борьбе с торговлей людьми. Другие правоохранительные органы обязаны незамедл передавать информацию и оказывать содействие данному нию. Особое уделяется защите жертв, конфиденциальности информации, профессиональной подготовке отрудников и межведомственному взаимодействию.

В статье отмечается, что преступления, связанные с торговлей людьми, носят скрытый (латентный) и транснациональный характер, что усложняет расследование. Жертвы часто боятся угроз, общественного осуждения или не доверяют правоохранительным органам, а также страдают от психологических травм, из-за чего могут отказываться сотрудничать со следствием.

Особое место занимает подход, ориентированный на защиту жертв. Законодательство Азербайджана предусматривает 30-дневный «период восстановления и размышления», в течение которого жертва может восстановиться, избежать влияния преступников и принять решение о сотрудничестве с органами следствия. Уголовное преследование осуществляется параллельно с реабилитацией, реинтеграцией и мерами безоасности.

В заключение подчеркивается необходимость международного сотрудничества с правоохранительными органами других государств и международными организациями для эффективной борьбы с транснациональной торговлей людьми. Автор приходит к выводу, что расследование таких преступлений требует профессионального, деликатного и индивидуального подхода.

Garayev Samir Siyasat,
Polise colonel, Ministry of İnternal Affairs, Republic of Azerbaijan

PROSECUTION ISSUES IN HUMAN TRAFFICKING CRIMES

SUMMARY

The article examines the issues of criminal prosecution in human trafficking cases in Azerbaijan. It explains the legal definition of human trafficking based on Azerbaijani legislation, the UN Convention against Transnational Organized Crime, and the Palermo Protocol. The paper highlights that criminal prosecution in these crimes includes operational-search activities, inquiry, investigation, prosecution, and judicial proceedings aimed at identifying offenders and ensuring justice.

A key feature is the assignment of investigations to a specialized police body responsible for combating human trafficking. Other law enforcement agencies must immediately report relevant information and cooperate with this specialized unit. Special emphasis is placed on victim protection, confidentiality, professional training of investigators, and coordinated institutional action.

The article explains that human trafficking crimes are often hidden (latent), transnational, and difficult to investigate because victims may fear retaliation, social stigma, or lack trust in authorities. Victims frequently experience psychological trauma and may avoid cooperation with investigators, making evidence collection more difficult.

Another important aspect is the victim-centered approach. Azerbaijani law provides a 30-day “recovery and reflection period” for victims to recover, escape traffickers’ influence, and decide whether to cooperate with authorities. Criminal proceedings are conducted alongside rehabilitation, reintegration, and protection measures, including confidentiality, psychological and legal support, and safety guarantees.

Finally, the article stresses the importance of international cooperation with foreign law enforcement agencies and international organizations such as INTERPOL, Europol, and Eurojust in combating transnational trafficking crimes. The author concludes that human trafficking investigations require a professional, sensitive, and individualized approach.

Redaksiyaya daxilolma tarixi: 22.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 24.06.2026
Çapa qəbul olunma tarixi: 25.06.2026